# Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları

Bu sənəd təhsilalanların aşağıdakı hüquq və vəzifələrini təmin etmək məqsədilə ümumi təhsil müəssisəsində nizam-intizamı tənzimləyən qayda və prosedurları müəyyən edir:

- fiziki təhlükəsizlik;
- psixoloji sağlamlıq;
- məktəbdaxili münasibətlər (şagirdlər arasında münasibət, məktəb kollektivi ilə olan münasibət);
- əlverişli öyrənmə mühiti;
- Azərbaycanın milli-mənəvi dəyərlərini əks etdirən müvafiq məktəb mühiti.

**Sənədin strukturu**

A. **Şagird davranış qaydaları:** 6 bölmə üzrə müəyyənləşdirilmiş qaydalar;
B. **Davranış səviyyələri:** qayda pozuntularının ağırlıq dərəcəsini müəyyənləşdirən səviyyələr;
C. **Tövsiyə edilən korreksiyaedici tədbirlər;**
D. **Rəğbətləndirmə tədbirləri;**
E. **Əsas terminlərin izahı.**

**Sağlamlıq imkanları məhdud və mental pozuntuları olan şagirdlər**

Təhsilverənlər və məktəb rəhbərliyi şagirdin ümumi davranış problemləri ilə xüsusi ehtiyaclardan (təhsil, psixi və emosional inkişafın ləngiməsi, fiziki məhdudiyyət və s.) irəli gələn davranışları fərqləndirməyi bacarmalıdırlar.

Məktəbin nizam-intizam qaydaları və tədbirləri bu qrupdan olan şagirdlərə də şamil edilir, lakin həmin şagirdlərə münasibətdə nizam-intizam qayda və tədbirlərinin tətbiqi forması dəyişdirilir. Bu zaman təhsilverənlər və məktəb rəhbərliyi peşəkar mühakimə yürütməli və ehtiyac olduqda müvafiq mütəxəssislərə müraciət etməlidirlər.

## A – şagird davranış qaydaları

### 1. Davamiyyət və punktuallıq

Şagirdlər:

**1.1.** ümumi təhsil müəssisəsinə müəyyən olunmuş vaxtda gəlməli və dərs gününün sonunadək müəssisəni tərk etməməli;
**1.2.** hər bir fənn üzrə dərslərin 96%-dən çoxunda iştirak etməli (üzrlü səbəblər istisna olmaqla);
**1.3.** hər bir dərs zəngindən öncə sinif otağında olmalı;
**1.4.** təlim prosesi zamanı müəllimin icazəsi olmadan tədris məkanını tərk etməməli;
**1.5.** buraxılmış dərs saatları/günləri üçün valideyn/qanuni nümayəndə tərəfindən yazılmış izahat və ya tibbi arayışı məktəbə qayıtdığı ilk gün təqdim etməli[1];
**1.6.** buraxılacaq dərs saatları/günləri ilə bağlı icazə almaq üçün valideyn/qanuni nümayəndə tərəfindən yazılmış icazəni *öncədən* (dərs günü ərzində şagirdin səhhətində problemlərin yarandığı və bu səbəbdən dərsdə iştirak edə bilmədiyi hallar istisna olmaqla) təqdim etməlidirlər.

*Şagirdlər ümumi təhsil müəssisəsinə vaxtında gəlməlidirlər. Əgər şagird dərs zəngindən sonra sinif otağına daxil olursa, ümumi təhsil müəssisəsinin gecikmə ilə bağlı prosedurlarına əməl etməli, sakit şəkildə sinfə daxil olmalı və digər şagirdlərin öyrənmə hüququna hörmət edərək təlim prosesinə mane olmamalıdır.*

### 2. Geyim və xarici görünüş

Şagirdlər:

**2.1.** şəxsi gigiyena qaydalarına riayət etməli;
**2.2.** dərs zəngindən əvvəl üst geyimi (palto, papaq, kapüşonlu jaket və s.) çıxarmalı;
**2.3.** ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarına aid qaydalara riayət etməli (məktəbli forması, ayaqqabı və s.);
**2.4.** geyim səliqəli və təmiz olmalı;
**2.5.** uzunluğu çiyindən aşağı olan saçları səliqəli şəkildə arxadan toplamalı;
**2.6.** fiziki tərbiyə dərsləri üçün məktəbin geyim qaydalarına riayət etməlidirlər.

**Aşağıdakılar qadağandır:**
Çox dar geyim, hündürdaban ayaqqabı, dizdən yuxarı olan ətək, zinət əşyası və bahalı saat kimi aksesuarlar, qeyri-adi saç düzümü və saç rəngi, uzun və rəngli dırnaqlar, makiyaj, saqqal.

---

[1] Valideynlər övladının dərsə gəlməməsi ilə bağlı müəllim və ya məktəb rəhbərliyinə öncədən məlumat verməlidirlər. Bununla yanaşı, şagird məktəbə qayıtdığı zaman valideyni tərəfindən yazılmış izahat məktəbə təqdim edilməlidir.

Ümumi təhsil müəssisələrindən yuxarıda qeyd olunanlarla bağlı daha dəqiq daxili qaydalar tərtib etmələri tələb olunur.

## 3. Təhlükəsizlik

Şagirdlər:

**3.1.** dərs gününün sonuna kimi ümumi təhsil müəssisəsinin ərazisində qalmalı, müəyyən edilmiş vaxtda oranı tərk etməli;
**3.2.** tədris binasının daxilində qaçmamalı, koridor və pilləkənlərin sağ tərəfi ilə hərəkət etməli;
**3.3.** pəncərə altlığında oturmamalı və pəncərədən çölə əyilməməli;
**3.4.** fənn laboratoriyaları, idman zalı, kitabxana və yeməkxana kimi məkanlarda müvafiq təhlükəsizlik qaydalarına riayət etməli;
**3.5.** məktəbdaxili və məktəbdənkənar tədbirlərdə, ekskursiyalarda məktəbin qaydalarına riayət etməli;
**3.6.** fövqəladə hallar (məsələn, yanğın, zəlzələ və s.) üçün ümumi təhsil müəssisəsinin qaydalarına riayət etməli;
**3.7.** "Şagirdlər üçün giriş qadağandır" yazısı ilə işarələnmiş ərazilərə (məsələn, mətbəx, texniki otaq, dam, zirzəmi, arxiv, qazanxana, server otağı və s.) daxil olmamalıdırlar.

Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası təhsilalanların tibbi vasitələri özləri ilə gətirməsi və istifadəsi ilə bağlı xüsusi qaydalar tərtib etməlidir.

## 4. Öyrənmə prosesində davranış və qarşılıqlı münasibətlərin tənzimlənməsi

Şagirdlər:

**4.1.** dərslərə vaxtında gəlməli, dərslik, dərs vəsaitləri və digər zəruri ləvazimatları gətirməli;
**4.2.** məktəb daxilində yüksək səslə danışmamalı;
**4.3.** cinsindən, irqindən, dinindən, dilindən, etnik mənsubiyyətindən və şəxsi xüsusiyyətlərindən asılı olmayaraq şagird yoldaşlarına və böyüklərə hörmət etməli;
**4.4.** başqalarının "şəxsi zonasına" hörmət etməli, digər şagird və ya böyüklərin fiziki və ya mənəvi təhlükəsizliyi üçün narahatlığa səbəb olacaq davranışlara yol verməməli;
**4.5.** dərs müddətində öyrənməni dəstəkləmək üçün aktiv dinləməli, müəllim sinfə müraciət edərkən danışmaq üçün əlini qaldırmalı, səs tonu və bədən dilinə diqqət etməli;
**4.6.** müəllimin təlimatlarına əməl etməli və səylə çalışmalı;
**4.7.** tənəffüs zəngi vurulduğu halda belə, tədris məkanını yalnız müəllimin icazəsi ilə tərk etməli;

**4.8.** tələb olunan ev tapşırığını yerinə yetirməli;

**4.9.** dürüst olmalı, qeyri-etik və ya uyğun olmayan davranışı düzəltməli və lazım gəldikdə üzr istəməlidirlər.

Qeyri-etik və təhqiramiz ifadələr, fiziki zorakılıq və ya dava-dalaş, qısnama (verbal, fiziki, cinsi, sosial və kiber) və digər antisosial davranış formaları yolverilməzdir və hüquqi məsuliyyət yarada bilər.

Şagirdlər yalnız müəyyən edilmiş zaman və məkanda qidalanmalıdırlar. Buna baxmayaraq, dərs müddətində su içə bilərlər[2].

## 5. Ümumi təhsil müəssisəsinin əmlakı və şəxsi əşyalara qayğı

Şagirdlər:

**5.1.** geyim daxil olmaqla özünün və başqalarının əşyalarının qeydinə qalmalı, başqalarının əşyalarını icazəsiz istifadə etməməli;

**5.2.** ümumi təhsil müəssisəsi əmlakının və sinif avadanlıqlarının qeydinə qalmalı;

**5.3.** sinif otaqları, şəxsi dolablar, oyun meydançaları və digər tədris yerlərini təmiz və səliqəli saxlamalı, tullantıları zibil qutularına atmalı;

**5.4.** ağıllı saat və  telefonları, həmçinin digər elektron cihazları məktəbə gətirməməli və dərs zamanı istifadə etməməli[3];

**5.5.** sinif otağını və digər tədris məkanlarını növbəti dərs üçün uyğun vəziyyətə gətirməlidirlər (mebellər və sinif avadanlıqları səliqəli olmalıdır).

**Aşağıdakı əşyaları ümumi təhsil müəssisəsinə gətirmək qadağandır:** kəsici və deşici alətlər, təhlükəli, zəhərli və ya tez alışan maddələr, kibrit və alışqanlar, siqaret (elektron siqaret), saqqız, spirtli içkilər, təsbeh və zinət əşyaları kimi aksesuarlar, qanunla istifadəsi və dövriyyəsi qadağan olunmuş maddələr.
Məsuliyyətsiz davranış nəticəsində məktəb əmlakına və başqalarının şəxsi əşyalarına vurulan zərərə görə valideyn/qanuni nümayəndə maddi məsuliyyət daşıyır. Maddi ziyanın ödənilməsi qanuna əsasən müəyyənləşdirilir.

## 6. Etik davranış

---

[2] Şagird dərs zamanı sinif otağını/təlim məkanını tərk etməməsi üçün özü ilə məktəbə su gətirməlidir. Sağlamlıq problemləri olan şagirdlərə yemək və içmək ilə bağlı istisnalar tətbiq edilə bilər.

[3] Əgər müəllimlər şagirdlərin şəxsi elektron cihazlarından istifadə edəcəkləri dərs planlaşdırırsa, o zaman bunu ailələrə öncədən yazılı şəkildə bildirməli və cihazların təhlükəsiz şəraitdə saxlanılmasını təşkil etməlidirlər. Əgər valideyn/qanuni nümayəndə övladına təhlükəsizlik məqsədilə (məktəbə gəlib gedərkən əlaqə saxlamaq üçün) elektron cihaz verərsə, o zaman ümumi təhsil müəssisəsi dərs gününün sonuna qədər bu cihazların təhlükəsiz şəraitdə saxlanılmasını təmin etməlidir. Dərs müddətində elektron cihazlar şagirdlərə verilməməlidir.

Şagirdlər:

**6.1.** Azərbaycan Respublikası dövlətçiliyinə, milli dəyərlərə və dövlət rəmzlərinə hörmət etməli;
**6.2.** məktəbin nüfuzuna xələl gətirəcək hərəkətlərə yol verməməli;
**6.3.** yoldaşları və böyüklər haqqında şəxsi məlumatların məxfiliyini pozmamalıdırlar.

*Aşağıdakı davranışlar yolverilməzdir:*

**6.4.** böhtan atmaq və həqiqəti gizlətmək;
**6.5.** məktəbin sənəd və ya məlumatlarını dəyişdirmək, saxtalaşdırmaq və zərər vermək;
**6.6.** akademik nəticələrini saxtalaşdırmaq, bu məqsədlə məktəb heyətinə pul, hədiyyə və ya digər maddi nemətlər təklif etmək;
**6.7.** qeyri-qanuni dərman vasitələrini məktəbə gətirmək, başqalarına təklif etmək və ya satmaq;
**6.8.** summativ qiymətləndirmə qaydalarını pozmaq;
**6.9.** sinif və ev tapşırıqlarını yerinə yetirərkən, həmçinin summativ qiymətləndirmə zamanı plagiatlıq və ya köçürmək;
**6.10.** alqı-satqı, əşyaların dəyişdirilməsi və ya qumar oynamaq;
**6.11.** qeyri-etik, təhqiramiz məzmunlu materialı kağız və ya elektron formatda əldə etmək və ya yaymaq;
**6.12.** dini və ya siyasi baxışları təbliğ etmək;
**6.13.** şagird yoldaşlarına qarşı qısnamaya (bullinq) yol vermək.

## B – qayda pozuntularının səviyyələri

Bu hissə qayda pozuntularının ağırlıq dərəcəsini təsnif edir.

***Bütün ümumi təhsil müəssisələrinin bu hissədə yazılan təlimatlara əməl etməsi məcburidir.***

### 1-ci səviyyə: yüngülsəviyyəli qayda pozuntuları

*1-ci səviyyəli qayda pozuntularına aşağıdakılar daxildir (lakin bunlarla məhdudlaşmır):*

- üzrsüz səbəbdən dərsə gecikmək;
- şəxsi gigiyena, məktəbli forması və xarici görünüşlə bağlı qaydalara əməl etməmək;
- ümumi təhsil müəssisəsi binasının daxilində qaçmaq;
- lazımi dərslik və ləvazimatları dərsə gətirməmək;
- dərslərdə diqqətsiz olmaq, səs-küy salmaq və dərsi pozmaq; dəhlizlərdə səs-küy salmaq;
- sinif otağı və ya təlim məkanını təmiz və səliqəli saxlamamaq;
- şagird yoldaşlarına və böyüklərə qarşı nəzakətsiz davranmaq;
- müəllimin icazəsi olmadan sinif otağı və ya təlim məkanını tərk etmək (münaqişəyə yol vermədən);
- məktəb heyəti üzvlərinin müvafiq təlimatlarına əməl etməmək (münaqişəyə yol vermədən);
- müəyyən edilmiş zaman və ya məkan xaricində yemək və içmək;
- qadağan olunmuş əşyaları məktəbə gətirmək (məsələn, təsbeh, ağıllı telefon, planşet və s.);
- saqqız çeynəmək.

### 2-ci səviyyə: ortasəviyyəli qayda pozuntuları

*2-ci səviyyəli qayda pozuntularına aşağıdakılar daxildir* (1-ci səviyyədəki qayda pozuntularının təkrarlanması daxil olmaqla) *(lakin bunlarla məhdudlaşmır):*

- *1-ci səviyyədə olan qayda pozuntularını davamlı təkrarlamaq və xəbərdarlıqları nəzərə almamaq;*
- yalan danışmaq, həqiqəti gizlətmək və ya təhrif etmək;
- dərs, toplantı və ya tədbirdən yayınmaq (məsələn, şagird məktəbdədir, ancaq müvafiq məkanda deyil);
- təhlükəsizlik qaydalarını pozmaq (məsələn, pəncərədən çölə əyilmək, sürahilərdə sürüşmək və ya laboratoriya, idman zalı, kompüter otağının təhlükəsizlik qaydalarını pozmaq);
- qadağan olunmuş (təhlükəsiz) ərazidə olmaq;
- sinif otağı və ya sinif otağından kənarda nizam-intizamı pozmaq;
- heç kimə ünvanlanmamış qeyri-etik ifadələr işlətmək;
- ekskursiya zamanı nəqliyyatda səs-küy salmaq və ya nizamı pozmaq;

- dərsdən sonra özünürefleksiya prosesində iştirak etməmək və ya prosesin sonuna qədər iştirak etməmək;
- başqasına emosional/fiziki zərər vuran ehtiyatsız hərəkət və ya davranışa yol vermək;
- sinif və ya ev tapşırığını köçürmək və ya tapşırığın köçürülməsinə şərait yaratmaq;
- məktəbdaxili qiymətləndirmə qaydalarını pozmaq;
- dərslik, internet və ya digər mənbələrdən plagiatlıq;
- alqı-satqı, əşyaların dəyişdirilməsi və qumar oyunlarında iştirak etmək[4].

## 3-5-ci səviyyə: ciddi və ağır qayda pozuntuları

*3-5-ci səviyyəli qayda pozuntularına aşağıdakılar daxildir (lakin bunlarla məhdudlaşmır):*

- *1-ci və 2-ci səviyyələrdə olan qayda pozuntularını davamlı təkrarlamaq və xəbərdarlıqları nəzərə almamaq;*
- məktəbdən yayınmaq (tədris müddəti ərzində məktəb ərazisindən kənarda olmaq);
- qadağan olunmuş təhlükəli ərazidə olmaq (məsələn, məktəbin damı, elektrik otağı və s.);
- ehtiyatsızlıqdan özünü və ya başqa birini təhlükəyə atmaq (qəsdən olarsa, 4-5-ci səviyyə);
- yanğın təhlükəsizlik siqnalını qəsdən işə salmaq;
- nizamı pozan davranışa təkrar yol vermək və ya ciddi şəkildə nizamı pozan davranışa yol vermək (qəsdən başqasına xəsarət yetirərsə, 4-5-ci səviyyə);
- şəxsə ünvanlanmış cinsi, irqi və ya digər məzmunlu təhqiramiz, qeyri-etik ifadələrdən istifadə etmək (4-5-ci səviyyə);
- başqalarına qarşı qeyri-etik şəkildə davranmaq;
- başqalarına qarşı açıq-aşkar hörmətsizlik etmək (4-5-ci səviyyə);
- başqasının əşyasını və ya məktəb əmlakını oğurlamaq (4-5-ci səviyyə);
- başqasının əşyasına və ya məktəb əmlakına zərər vurmaq (4-5-ci səviyyə);
- tütün məmulatlarını (elektron siqaret daxil olmaqla) məktəbə gətirmək və ya istifadə etmək;
- hər hansı təhlükəli əşyanı məktəbə gətirmək (4-5-ci səviyyə);
- əsl silahı imitasiya edən hər hansı əşyanı məktəbə gətirmək;
- təhdidedici davranış nümayiş etdirmək;
- zorakılıq etmək, dalaşmaq və ya zorakı şəkildə qisas almaq (4-5-ci səviyyə);
- fiziki, cinsi, verbal, mənəvi və kiberqısnama (4-5-ci səviyyə);
- şagird yoldaşları və böyüklər haqqında şəxsi məlumatların məxfiliyinə xələl gətirmək;
- qeyri-etik, təhqiramiz məzmunlu materialı kağız və ya elektron formatda əldə etmək və ya yaymaq (4-5-ci səviyyə);

---

[4] Əgər davranış təkrarlanarsa, böyük məbləğdə pul və ya qiymətli əşya mübadiləsi baş verərsə, qayda pozuntusu 3-5-ci səviyyə hesab olunur.

- məxfilik hüquqları və məktəb nüfuzu ilə bağlı qaydaları pozmaq;
- qeyri-etik fiziki təmas;
- başqasının nüfuzuna və rifahına xələl gətirmək məqsədilə qəsdən yalan danışmaq;
- imtahanın şəffaflığına ciddi şəkildə xələl gətirmək;
- məktəb sənədlərini və məlumatlarını dəyişdirmək və ya saxtalaşdırmaq (4-5-ci səviyyə);
- təyin edilən korreksiyaedici tədbirin tələblərini yerinə yetirməmək və buna cidd-cəhdlə etiraz etmək.

Aşağıdakı qayda pozuntuları birbaşa 5-ci səviyyə hesab olunur: çox ağır qayda pozuntuları

- Azərbaycan dövlətçiliyinə, milli dəyərlərə və dövlət rəmzlərinə hörmətsizlik etmək;
- qəsdən ciddi fiziki zərərə səbəb olan zorakılıq etmək;
- cinsi zorakılıq etmək;
- təhlükəsizlik qaydalarını ciddi xəsarət və ya ölümə səbəb ola biləcək şəkildə pozmaq;
- ekskursiya zamanı nəqliyyatın təhlükəsizliyini riskə atan davranış nümayiş etdirmək;
- başqalarının əşyalarına və ya məktəb əmlakına qəsdən ziyan vurmaq;
- qanunsuz dərman vasitələri və əşyaları ümumi təhsil müəssisəsinə gətirmək, istifadə etmək və ya satmaq;
- məxfilik hüquqlarını ciddi şəkildə pozmaq; məktəbin, eyni zamanda, digər şagirdlərin və böyüklərin nüfuzuna ciddi şəkildə xələl gətirmək;
- ümumi təhsil müəssisəsinə silah və ya ciddi təhlükə yaradan digər qadağan olunmuş əşyalar gətirmək;
- akademik nəticələri saxtalaşdırmaq, habelə bu məqsədlə məktəb heyətinin üzv və ya üzvlərinə pul, hədiyyə, xidmət və ya hər hansı digər maddi nemət təklif etmək (şagird və ya onun ailəsi tərəfindən);
- qeyri-etik, ağır təhqiramiz məzmunlu materialı kağız və ya elektron formatda əldə etmək və ya yaymaq.

## C – korreksiyaedici tədbirlər

Ümumi təhsil müəssisəsinin idarəetmə heyətindən şagirdlərin məktəbdaxili nizam-intizam qaydalarının tətbiqi, korreksiyaedici tədbirlərin həyata keçirilməsi və zəruri qeydiyyatın aparılması tələb olunur.

Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası tərəfindən verilmiş qərarlar Azərbaycan Respublikası qanunlarına zidd olmamalıdır.

Bütün ümumi təhsil müəssisələri Nizam-intizam Şurası (NİŞ) yaratmalıdır. NİŞ, adətən, məktəb rəhbərliyi, təhsilverənlər (sinif rəhbəri, fənn müəllimləri, psixoloqlar və s.) və ən azı bir valideyn daxil olmaqla 5-7 nəfərdən ibarət olur. Direktor şuranı aşağıdakı hallarda toplayır:

- qayda pozuntusunun səviyyəsini müəyyən etmək və/və ya müvafiq korreksiyaedici tədbirin tətbiqi zərurəti yarandıqda;
- valideyn\qanuni nümayəndə övladı barədə verilmiş korreksiyaedici tədbir barədə qərara rəsmi şəkildə etiraz etdikdə;
- məktəbdaxili nizam-intizam qayda və prosedurlarını yenidən nəzərdən keçirməyə ehtiyac olduqda.

| Səviyyə | Korreksiyaedici tədbirlər | Məsul şəxs(lər) | Qeydiyyat/məsul şəxs |
|---|---|---|---|
| 1. Yüngülsəviyyəli qayda pozuntuları | ● “Müəllim baxışı”/qeyri-verbal ünsiyyət;<br>● Şagirdlə “sakit söhbət” (səs tonunu qaldırmadan) – onların davranışının niyə qəbuledilməz hesab olunduğu və nə üçün təkmilləşdirməyə ehtiyac olduğunu dəqiq izah etmək. | Hadisənin şahidi, dərsi aparan müəllim və ya digər məsul şəxs | Qeydiyyat aparmağa ehtiyac yoxdur. |
| 2. Ortasəviyyəli qayda pozuntuları<br><br>….və ya 1-ci səviyyəli qayda pozuntularının təkrarı | ● **1-ci şifahi xəbərdarlıq** (təklikdə deyilməsi tövsiyə olunur) – şagirdə niyə şifahi xəbərdarlıq aldığı bildirilir. Davranışının niyə qəbuledilməz hesab olunduğu və nə üçün təkmilləşməyə ehtiyac olduğu aydın şəkildə izah olunur;<br>● **2-ci şifahi xəbərdarlıq** (təklikdə deyilməsi tövsiyə olunur) – şagirdə niyə 2-ci şifahi xəbərdarlıq aldığı və davranışının nə üçün qəbuledilməz olduğu aydın şəkildə izah olunur;<br>● Valideyn/qanuni nümayəndə ilə telefonla əlaqə saxlanılır və ya dərs gününün sonuna görüş təyin olunur;<br>● Şagird bir dəfə dərsdən sonra özünürefleksiya prosesinə cəlb olunur[5];<br>● Müəllim və ya məktəb rəhbərliyinin üzvü | Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs<br><br>Məktəb rəhbərliyinin üzvü | Sinif davranış jurnalında hadisənin qeydiyyatı aparılır.<br>(Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs)<br><br>Valideynlə/qanuni nümayəndə ilə görüşün detalları sinif davranış jurnalında qeyd olunur.<br><br>Özünürefleksiyanın qeydiyyat forması<br>(Məktəb rəhbərliyi) |

[5] Bax: əlavə 2

| | | | |
|---|---|---|---|
| | ilə görüş (2-ci səviyyə davranış pozuntusunda valideynin/qanuni nümayəndənin iştirakı tələb olunmur). | | |
| 3. Ciddi qayda pozuntuları<br><br>….və ya 1-ci və 2-ci səviyyəli qayda pozuntularının təkrarı | • Müəllim və ya məktəb rəhbərliyinin üzvü ilə görüş;<br>• Şagird dəstək üçün psixoloqa yönləndirilir;<br>• Şagird bir neçə dəfə dərsdən sonra özünürefleksiya prosesinə cəlb olunur;<br>• Valideyn/qanuni nümayəndəyə bildiriş məktubu göndərilir;<br>• Müəllim, valideyn/qanuni nümayəndə və məktəb rəhbərliyinin üzvü ilə görüş. | Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs<br><br>Məktəb rəhbərliyinin üzvü<br><br>Məktəb psixoloqu<br><br>Valideyn/qanuni nümayəndə<br><br>NİŞ (direktorun qərarı ilə) | Sinif davranış jurnalında hadisənin qeydiyyatı aparılır.<br>(Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs)<br><br>Psixoloqun şagirdlə apardığı işin qeydiyyatı<br>(Psixoloq)<br><br>Sinif davranış jurnalında bildiriş məktubunun qeydiyyatı aparılır və surəti saxlanılır (Bax: əlavə 1).<br><br>Özünürefleksiyanın qeydiyyat forması (Məktəb rəhbərliyi)<br><br>Görüşün protokolları<br>(Məktəb rəhbərliyi) |
| 4. Ağır qayda pozuntuları<br><br>və ya 1-ci, 2-ci və 3-cü səviyyələri | • Şagird dəstək üçün psixoloqa yönləndirilir;<br>• Şagird bir neçə dəfə dərsdən sonra özünürefleksiya prosesinə cəlb olunur;<br>• Valideyn/qanuni nümayəndəyə bildiriş məktubu göndərilir;<br>• Müəllim, valideyn/qanuni nümayəndə, məktəb rəhbərliyinin üzvü və direktorla görüş; | Hadisənin şahidi və ya dərsi aparan məsul şəxs və müəllim<br><br>Məktəb rəhbərliyinin üzvü<br><br>Məktəb psixoloqu<br><br>Məktəbin direktoru | Sinif davranış jurnalında hadisənin qeydiyyatı aparılır.<br>(Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs)<br><br>Psixoloqun şagirdlə apardığı işin qeydiyyatı<br>(Psixoloq) |

| | | | |
|---|---|---|---|
| n təkrarı | ● Şagird və ya onun ailəsinə dəstək üçün sosial xidmət mərkəzlərinə müraciət etmək (NİŞ və ya direktorun qərarı ilə). | Valideyn/ qanuni nümayəndə<br><br>Sosial xidmət mərkəzinin əməkdaşları (NİŞ və ya direktorun qərarı ilə) | Sinif davranış jurnalında bildiriş məktubunun qeydiyyatı aparılır və surəti saxlanılır (Bax: əlavə 1).<br><br>Özünürefleksiyanın qeydiyyat forması (Məktəb rəhbərliyi)<br>Görüşün protokolları<br>(Məktəb rəhbərliyi) |
| 5. Çox ağır qayda pozuntuları<br><br>…və ya 1-ci, 2-ci, 3-cü və ya 4-cü səviyyələrin təkrarı | ● Şagird dəstək üçün psixoloqa yönləndirilir;<br>● Şagird bir neçə dəfə dərsdən sonra özünürefleksiya prosesinə cəlb olunur;<br>● Valideyn/qanuni nümayəndəyə bildiriş məktubu göndərilir;<br>● Müəllim, valideyn/qanuni nümayəndə, idarəetmə heyətinin üzvü və direktorla görüş;<br>● Sosial xidmət mərkəzlərinə müraciət etmək;<br>● Şagird haqqında YYÇİ (Yetkinlik yaşına çatmayanlarla iş) və hüquq müdafiəsi üzrə komissiyaya (və ya yerli polis idarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işlərin təşkili şöbəsinin inspektorlarına) məlumat verilməsi. | Hadisənin şahidi və ya dərsi aparan məsul şəxs və müəllim<br><br>Məktəb rəhbərliyinin üzvü<br><br>Məktəb psixoloqu<br><br>Məktəbin direktoru<br><br>Valideyn/qanuni nümayəndə<br><br>NİŞ (direktorun qərarı ilə)<br><br>Sosial xidmət mərkəzinin əməkdaşları (NİŞ və ya direktorun qərarı ilə)<br><br>Yerli icra hakimiyyəti yanında YYÇİ və hüquq müdafiəsi üzrə komissiya prosesə cəlb olunur (məktəb direktorunun qərarı ilə). | Sinif davranış jurnalında hadisənin qeydiyyatı aparılır.<br>(Hadisənin şahidi, dərsi aparan müəllim və ya məsul şəxs)<br><br>Sinif davranış jurnalında bildiriş məktubunun qeydiyyatı aparılır və surəti saxlanılır (Bax: əlavə 1).<br><br>Özünürefleksiyanın qeydiyyat forması (Məktəb rəhbərliyi)<br><br>Psixoloqun şagirdlə apardığı işin qeydiyyatı<br>(Psixoloq)<br><br>Görüşün protokolları<br>(Məktəb rəhbərliyi) |

| | | | |
|---|---|---|---|
| | | Ərazi üzrə YYÇİ-nin baxımsızlıq və hüquq pozuntularının profilaktikası üzrə polis əməkdaşı prosesə cəlb olunur (məktəb direktorunun müraciəti ilə). | |

**QEYD:** Şagirdin yol verdiyi qayda pozuntuları dərs prosesini tamamilə pozduğu və onun davranışının idarəedilməz olduğu müstəsna hallarda şagird dərsdən və ya olduğu məkandan (dəhliz, həyət və s.) uzaqlaşdırıla bilər. Məktəb rəhbərliyinin üzvü davranışının niyə qəbuledilməz olduğunu şagirdə izah edir. Şagird səhvini anladıqda dərsə qayıda bilər. Əks təqdirdə, şagird dərsin qalan hissəsini məsul şəxsin nəzarəti altında qalır.

**<u>Davamiyyət və məktəbli formasının tənzimlənməsi</u>**

Ümumi təhsil müəssisələrindən aşağıda qeyd olunan məsələlərlə bağlı daxili prosedurların (müxtəlif tədbirlər, xatırlatma məktubları və qeydiyyatın aparılması) müəyyənləşdirilməsi tələb olunur:

- punktuallıq və davamiyyət;
- məktəbli forması və xarici görünüş.

Bu sahələri əhatə edən qaydaların tətbiqi və müvafiq qeydiyyatın aparılması icbaridir. Məktəbli forması və xarici görünüşlə bağlı qayda pozuntularının 3-cü səviyyəni keçməsinə yol verilməməlidir.
Direktorun qərarı ilə yerli icra hakimiyyətinin müvafiq nümayəndəsi prosesə cəlb oluna bilər.

## <u>D – rəğbətləndirmə tədbirləri</u>

Bu hissə nümunəvi davranış meyarları ilə yanaşı, rəğbətləndirmə tədbirlərini də müəyyən edir.

***Bütün ümumtəhsil məktəblərinin bu hissədə yazılan təlimatlara əməl etməsi məcburidir.***

Şagirdlər ***nümunəvi davranışa*** görə rəğbətləndirilirlər. Nümunəvi davranış 3 meyara ***(Nizam-intizam, sosial məsuliyyətlilik və akademik nailiyyət)*** əsasən dəyərləndirilir.

**<u>Hər altmeyar üçün 1 yaşıl kart nəzərdə tutulur.</u>**

Meyarların təsviri aşağıdakı cədvəldə öz əksini tapır:

| Nümunəvi davranışlar | | |
|---|---|---|
| **Meyar** | **Altmeyar** | **Nümunələr (bunlarla məhdudlaşmır)** |
| **1. Nizam-intizam** | 1.1. Şagird davranış qaydalarına riayət | Yarımil ərzində 2, 3, 4 və 5-ci səviyyəli heç bir qayda pozuntusu etməmək |
| | 1.2. Davamiyyət və punktuallıq | Yarımil üzrə 96%-dən yüksək davamiyyət göstərmək, məktəbə və dərslərə vaxtında gəlmək |
| | 1.3. Milli dəyərlərə hörmət | Vətənpərvərlik keyfiyyətləri ilə yoldaşlarına nümunə olmaq |

| | | |
|---|---|---|
| **2. Sosial məsuliyyət** | 2.1. Nümunəvi əxlaqi davranış | Dürüst və vicdanlı olmaq, xeyirxahlıq etmək, ehtiyac olduqda özündən böyüklərə və kiçiklərə kömək etmək, məktəb əmlakını qorumaq |
| | 2.2. İctimai-sosial tədbirlərdə fəal iştirak | Sosial məsuliyyətlə bağlı proqram və layihələrdə iştirak etmək (ətraf mühitin mühafizəsi, sağlamlıq imkanları məhdud və əlil insanlara yardım və s.) |
| | 2.3. Liderlik bacarıqları, innovativlik və təşəbbüskarlıq | Sosial məsuliyyət layihələri ilə bağlı təşəbbüs irəli sürmək, şagirdlərdə müsbət sosial davranışların, ətraf mühitə qarşı həssas münasibətin formalaşdırılması fonunda çağırış və təqdimatlar etmək, tədbirlər təşkil etmək, görüşlər keçirmək;<br><br>Məktəb icmasının üzləşdiyi problemlərlə bağlı yaradıcı və innovativ həll yolları təklif etmək |
| **3. Akademik və sosial fəaliyyətlər** | 3.1. Yarımillik və illik qiymətləndirmə nəticələri | Fənlər üzrə yarımillik və ya illik ümumi ortalama nəticənin **75** baldan yüksək olması |
| | 3.2. Məktəbdaxili yarış, müsabiqələr, yerli və beynəlxalq olimpiadalarda iştirak | Fənn müsabiqə və olimpiadalarında, layihəəsaslı müsabiqələrdə, məktəbdaxili intellektual yarışlarda nailiyyətlər qazanmaq |

| | | |
|---|---|---|
| | 3.3. Sinifdənxaric və məktəbdənkənar tədbirlərdə fəal iştirak | Məktəbdə və məktəbdənkənar həyata keçirilən tədbirlərdə fəal iştirak etmək, idman, layihə, sərgi, sosialtipli müsabiqə və yarışlarda nailiyyətlər qazanmaq |

Şagirdə yaşıl kart müvafiq şəxslərin (sinif rəhbəri, fənn müəllimi və s.) təqdimatı əsasında Nizam-intizam Şurasının qərarı ilə verilir və sinif davranış jurnalında qeydiyyatı aparılır.

***Şagird ciddi qayda pozuntularına yol verdikdə Nizam-intizam Şurasının qərarı ilə onun yaşıl kartları ləğv edilə bilər.***

Hər yarımilin sonunda yaşıl kartların sayına uyğun olaraq şagirdlər **tərifnamə**, **təşəkkürnamə** və **fəxri fərman** ilə təltif olunurlar.

- **3** yaşıl kart – **tərifnamə**
- **5** yaşıl kart – **təşəkkürnamə**
- **8** yaşıl kart – **fəxri fərman**

Şagirdin təltifnamələri onun şəxsi işinə əlavə edilir.

**Qeyd: 1. Məktəb yuxarıda qeyd olunanlardan əlavə rəğbətləndirmə tədbirləri tətbiq edə bilər.**

**2. Məktəb müəyyən hallarda şagirdi birbaşa olaraq fəxri fərmanla təltif edə bilər (Nümunə: yerli və beynəlxalq olimpiadalarda, müsabiqələrdə yüksək nəticə göstərən şagirdlər və s.).**

## E – əsas terminlərin izahı

**Dərs günü:** tam məktəb günü, ilk dərsdən və ya fəaliyyətdən (məsələn, Dövlət Himninin oxunma mərasimi) son dərsə və ya fəaliyyətədək olan müddət.

**Özünürefleksiya:** 2, 3, 4 və 5-ci səviyyəli qayda pozuntuları üçün nəzərdə tutulan korreksiyaedici tədbirdir. Şagirdin öz davranışını yazılı şəkildə təhlil etməsi üçün dərsdən sonra sinif mühitində məsul şəxsin nəzarəti altında saxlanılmasını nəzərdə tutur. Dərsdən sonra özünürefleksiya prosedurunun həyata keçirilməsi bu sənədə əlavələrdə öz əksini tapır.

**Müəyyən olunmuş vaxt:** məktəbə gəlmək və məktəbi tərk etməklə bağlı məktəb tərəfindən müəyyən edilmiş vaxt. Dərsdən sonra əlavə dərslər, dərnəklər və s. kimi fəaliyyətlərdən asılı olaraq təyin olunmuş vaxt sinifdən sinfə, şagirddən şagirdə dəyişə bilər.

**Öyrənmə prosesində davranış:** şagirdin uğurlu öyrənməsinə müsbət təsir göstərə biləcək davranış və vərdişləri müəyyənləşdirən modeldir.

**Sağlamlıq imkanları məhdudluğundan irəli gələn xüsusi ehtiyaclar:** şagirdin öyrənmə, ünsiyyət qurma, sosiallaşma və hərəki bacarıqlarına maneə yaradan tibbi diaqnozla təsdiqlənmiş hallar. Məsələn, disleksiya, diskalkuliya, autistik spektr pozuntusu, diqqət çatışmazlığı pozuntusu, diqqət çatışmazlığı hiperaktivlik pozuntusu.

**Sinif davranış jurnalı:** hər bir sinif üçün sinif rəhbəri tərəfindən yaradılan davranış haqqında qeydiyyat jurnalıdır. Məktəbin işçi heyətinin hər hansı bir üzvü jurnalda qeydiyyat apara bilər. Jurnalda baş verən hadisənin təfərrüatları (tarix, məkan, davranış, hadisədə iştirak edən şəxslər) və korreksiyaedici tədbirlər barədə məlumat qeyd olunur.

**Təlim məkanı:** sinif otağından başqa dərslərin keçirildiyi və öyrənmənin baş verdiyi digər məkanlar. Məsələn, fənn kabinet və laboratoriyaları, idman zalı, kitabxana, kompüter otağı, həmçinin müəyyən fəaliyyətlər üçün dəhliz və oyun meydançası.

**Üzrlü səbəbdən dərsə gəlməmək:** valideyn/qanuni nümayəndə tərəfindən yazılmış izahat və ya tibbi arayışa əsasən xəstəlik, yaxın qohumunu itirmə, hər hansı xüsusi hal və s. səbəbindən şagirdin dərsdə iştirak etməməsi. Şagirdin buraxdığı dərs saatlarının üzrlü hesab edilməsi üçün məktəbin müvafiq prosedurlar tərtib etmək səlahiyyəti var; valideyn və şagirdlər bu prosedurlara riayət etməlidirlər.